# BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞU ƏRAZİSİNDƏN AXAN OXÇUÇAYIN HAL-HAZIRKİ EKOLOJİ DURUMU

**Əhmədova S.Z., Musayev V.R.**

*Gəncə Dövlət Universiteti*
*sevda_axmedova@inbox.ru*

Bəsitçay Dövlət Təbiət Qoruğunun adı monqol mənşəli olub, Beysut tayfasının adından götürülmüşdür. Zəngilan rayonunda yerləşən qoruğun ərazisi əsasən dağlıq olub, dəniz səviyyəsindən 600-800 m-ə qədər hündürlükdə yerləşir. Sağ sahili dik yamaclı, sol sahil isə təpəlikdən ibarətdir. Əfsuslar olsun ki, ərazidən axan Oxçuçay bu gün erməni terroristləri tərəfindən ekoloji terrorla üz-üzə gəlib.

Başlanğıcın qədim yurd yerimiz Zəngəzur silsiləsinin Qapıcıq dağından (3285 m) götürüb, indiki Zəngilan rayonu ərazisindən keçən, ümumi uzunluğu 85 km (40 km-ə qədəri Azərbaycan ərazisinə düşür) və hövzəsinin sahəsi 1140 $km^2$ olan Oxçuçay bu gün yüksək miqdarda mis, molibden, manqan, dəmir, sink və xrom kimi ağır-toksik maddələrlə erməni vandalları tərəfindən yüklənmişdir. Belə ki, laboratoriyalarda aparılan analizə əsasən, çirklənmə səviyyəsi normadan dəfələrlə artıq olan çayda mis-molibden birləşmələrinin miqdarı, dəmir və nikel mövcud göstəricilərdən yüksəkdir. Çayın rəngi isə çirklənmə səbəbindən dəyişikliyə məruz qalmışdır.

Araşdırmalardan məlum olmuşdur ki, bu cür çirklənməyə əsas səbəb Qafanda fəaliyyət göstərən ermənilərlə müştərək çalışan Almaniyaya məxsus "Cronimet Holdinq" sənaye müəssisəsidir, burada mis-filiz emalı zavodunun tullantıları çaya axıdılır, digər bir tərəfdən Qacaranda yerləşən iri həcmli dağ-mədəndən mis-molibden yatağının istismarı ilə bağlı çaya birbaşa axıdılan ağır metallardır.

Bugün Oxçuçay sənaye tullantıları ilə həddsiz dərəcədə çirklənməyə məruz qalmışdır və nəticə olaraq çayın ekosisteminin pisləşməsi səbəbindən çayda balıqların kütləvi məhv olması baş verir.

Baxmayaraq ki, dövlətimiz və transsərhəd dövlətləri (İran, Türkiyə) Ermənistana rəsmi müraciətlər etmişdir- qarşı tərəf hələ də qlobal ekoloji durumun aradan qaldırılmasına laqeydlik göstərməkdədir.